BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2006

# MƏHƏMMƏD İBN SƏLLAM ƏL-CÜMƏHİ MÜASİR TƏDQİQATLARDA

**K.Ə.MƏMMƏDOVA**
*Bakı Dövlət Universiteti*

İslamın ilkin əsrlərində islamaqədərki və islamın möhkəmlənib yayılmağa başladığı dövrlərin ərəb ədəbiyyatı nümunələrinin toplanmasında xüsusi xidmətləri olmuş filoloqlardan biri də uzun həyat yolu keçmiş (h.139-231/m.757-846) Məhəmməd ibn Səllam əl-Cüməhi olmuşdur. Onun adı zəmanəmizə gəlib çatmamış beş fundamental elmi əsərlə bağlıdır. Adı çəkilən əsərlərindən yalnız «Təbəqatü-fühuliş-şüəra»nın əlyazması XX əsrin əvvəllərində tapılmış və dərhal dünya şərqşünaslığının diqqətini cəlb etmişdir. Əsərin tədqiqatlara cəlb edilməsi ərəb ədəbiyyatı tarixinin yeni aşkarlanmış faktlarla zənginləşdirilməsinə imkan vermişdir.

Əbu Abdullah Məhəmməd ibn Səllam əl-Cüməhi məşhur ərəb filoloqu, tarixçisi və salnaməçisi, qədim ərəb rəvayətlərinin və poeziyasının toplayıcısı və ötürücüsü, bir sıra əsərlərin, o cümlədən ən qədim dövrlərdən Əməvilər dövrünün sonuna qədər böyük bir zamanı əhatə edən ərəb poeziyası haqqında «Kitabü-təbəqatiş-şüərail-cahiliyyin» və «Kitabü-təbəqatiş-şüərail-islamiyyin» əsərlərinin müəllifidir (1, s.216).

Azərbaycan ərəbşünaslığında əl-Cüməhi və onun göstərilən əsəri hələ müfəssəl araşdırmalara cəlb olunmasa da, ayrı-ayrı mövzulara həsr edilmiş elmi-tədqiqat işlərində müəllifin adı və əsəri xatırlanmış, onun ərəb ədəbiyyatşünaslığının inkişafındakı roluna tənqidi yanaşılmış, bu barədə ilkin fikir deyilmişdir.

Müasir Azərbaycan şərqşünaslığının korifeylərindən professor V.M.Məmmədəliyevin əl-Cüməhini xatırlaması hər şeydən qabaq diqqəti cəlb edir və əlavə söz deməyə imkan verir. Alim Bəsrə dilçilik məktəbinin ilk nümayəndələrindən biri olan İbn Əbu İshaq əl-Hadrami (öl.h.117) haqqında danışarkən Məhəmməd ibn Səllam əl-Cüməhinin əl-Hadramini nəhvi dərindən bilən, onun məğzinə varan, qiyası (analogiyanı) yeni surətdə tətbiq edən, illətləri (qrammatik hadisələrin səbəblərini) izah edən ilk dilçi kimi təqdim etdiyini göstərir: əl-Cüməhinin yazdığına görə, əl-Hadrami qiyasa o qədər aludə olmuşdur ki, onu ərəblərin işlətdiyi sözlər əsasında onların demədikləri, işlətmədikləri sözlərə belə şamil etmişdir (3, s.19).

Prof. V.M.Məmmədəliyev müasir Azərbaycan ərəbşünaslığında böyük bir sıçrayış sayılan «Ərəb dilçiliyi» monoqrafiyasının başqa bir yerində Yaqut Həməviyə əsaslanaraq göstərir ki, Yunus bin Həbibdən cahiliyyət dövrü şairlərindən hansının daha böyük sənətkar olduğunu soruşduqda o, obrazlı şəkildə: «İmruul-Qeys at belinə mindiyi, Nabiğə

qorxduğu, Züheyr sevdiyi, Əl-Ə'şa isə şənləndiyi zaman ən gözəl şairdir» demişdi (3, s.22; 1, s.200). Maraqlıdır ki, bu sözlərin izinə olduğu kimi əl-Cüməhinin əsərində də rast gəlirik. Ola bilsin ki, Yaqut Həməvi həmin epizodu «Kitabü təbəqat»dan götürmüşdür.

Prof. V.M.Məmmədəliyev Kufə qrammatika məktəbinin nümayəndəsi Əbül-Abbas Əhməd bin Yəhya Sə'ləb (815-904) haqqında yazarkən göstərir ki, o, poeziya və folkloru Məhəmməd ibn Səllam əl-Cüməhidən öyrənmişdir (3, s.121-122). Deməli, Əbül-Abbas əl-Cüməhinin ən məşhur şagirdləri arasında olmuşdur. Eləcə də məlum olur ki, Əbut-Teyyib əl-Lüğəvinin (öl.962) müəyyən etdiyi beş təbəqədən Bəsrə və Kufə məktəblərinin paralel şəkildə verilən dördüncü təbəqəsi bəsrəlilərdən Xəlil, Əbu Zeyd əl-Ənsari, Əbu Übeydə, Əsməi, Sibəveyhi, Həmmad bin Sələmə və b. ilə yanaşı, İbn Səllam əl-Cüməhini də əhatə edir (3, s.175-176). Beləliklə, Azərbaycan alimi əl-Cüməhinin əslən bəsrəli olduğunu müəyyənləşdirmiş olur.

Başqa bir Azərbaycan alimi İmamverdi Həmidov islamaqədərki ərəb şeirinin toplanmasının metodologiyası haqqında danışarkən göstərir ki, belə poeziya nümunələri ya «məna», ya da «cəmhərət» əsasında birləşdirilirdi. Birinci halda şeirlərdəki orijinal ifadələr və nadir sözlər əsas götürülür, mövzu baxımından qruplaşdırma aparılırdı. Bir qayda olaraq belə tematik qruplaşdırma linqvistik şərhlərlə və qısa hekayətlərlə müşayiət olunurdu. Cəmhərət metodu ilə hazırlanan divanlara isə daha çox şeirlər, ədəbiyyat tarixinin daha böyük mərhələsini əhatə edən poeziya nümunələri daxil edilirdi. Müəllif IX əsrdə ədəbi tənqiddə «siniflərə» əsasən təbəqələrə bölünmə prinsipinin tətbiq olunmağa başladığını göstərərək qeyd edir ki, bu metoddan istifadə edənlər zaman, şəxsiyyət, əsl-nəcabət və s. kateqoriyalara istinad edirdilər. Belə müəlliflərdən biri filoloq Məhəmməd ibn Səllam əl-Cüməhi olmuşdur. Əl-Cüməhinin praktik işi onun kitabın əvvəlində açıqladığı nəzəri fikirlərinə əsaslanır. Müəllifin poetik əsərlərin tənqid predmetini işıqlandırmaq cəhdləri, əsl və təhrif olunmuş misraların müəyyənləşdirilməsi imkanlarını nümayiş etdirməsi təqdirəlayiqdir. Ancaq əl-Cüməhi bir sıra məsələləri yalnız subyektiv mövqedən təhlil edir. Əl-Cüməhinin öz təzkirəsini qurmaq planı xüsusi maraq doğurur, çünki bu əsər poeziya sahəsində siniflərə həsr olunan ilk kitab kimi qiymətləndirilir. Bununla belə, şairlərin cahiliyyə, «müxədrəm» adlanan keçid mərhələsi və islam dövrü üzrə təsnif edilməsi prinsipi o qədər də aydın olmur. Müəllifin ədəbi-tənqidi metodologiyaya deyil, riyazi prinsiplərə əsaslanan sələflərinin cığırından çıxa bilməməsi qeyd olunur. Əl-Cüməhinin təqdimatında şairlər on sinfə bölünmüş və hər sinfə dörd şair daxil edilmişdir. Belə təsnifat sayəsində müəllif bəzən özünü çətin vəziyyətə salır. Buna görə də yazır ki, hər hansı bir sinfə aid etdiyi bu və ya digər şairi həmin sinifdə daha üstün tutduğuna görə qabağa salmır, bunu ona görə edir ki, «axı kimdənsə başlamaq lazımdır».

Əl-Cüməhinin təzkirəsinə onun özünün müasiri olan Abbasi dövrünün şairləri daxil edilməmişdir. İslam dövrünə aid hissədə kitabın, demək olar ki, üçdə bir hissəsi əl-Əxtələ, əl-Fərəzdəqə və Cərirə həsr edilmişdir. Beləliklə, hansısa bir şairin yaradıcılığını səciyyələndirmək üçün əl-Cüməhi müasirlərinin məlum linqvistik nəticələrini «sübut etmək» üçün seçdiyi şeirlərdən istifadə etmişdir (II, 200) ( 5, s.91-94).

S.Kazımoğlu (Məmmədov) əl-Cüməhinin adını çəkərək yazır ki, o,

şairləri tarixilik prinsipinə əsaslanaraq yerləşdirdiyi toplusunun adını «Görkəmli şairlərin yeri» adlandırdı və bu IX əsrdə təqdim edilən əsər adları içərisində yeniliklərdən biri idi. Belə ki, həmin dövrlərdə adətən «poeziya nümunələrindən düzəldilən topluları çox vaxt onu redaktə edənin adı ilə bağlayırdılar. Məsələn, **əl-əsmaiyyət** və **əl-mufaddaliyyət** bu qəbildən olan toplular idi. Müəllif Səlum Davudun fikrinə əsaslanaraq qeyd edir ki, Cüməhinin «Görkəmli şairlərin yeri» əsəri ərəb ədəbi tənqidində elmə dayanan ilk kitab sayılır. O daha sonra göstərir ki, «buna baxmayaraq, Cüməhinin əsərlərində terminlər olduqca zəif verilmişdir. Bu da onunla izah edilməlidir ki, o dönəmdə poetika və üslubiyyat sahəsində əsaslı terminlər hələ yaranmamışdı» (2, s.64-68; 6, s.66).

Məhəmməd bin Səllam əl-Cüməhi və onun əsəri haqqında ən çox söz demiş **şərqiyyat** alimlərindən biri akademik İ.Y.Kraçkovski olmuşdur. Əlyazmanın aşkarlanaraq ilk dəfə 1916-cı ildə Leydendə Yozef Hell tərəfindən nəşr olunmasına dərhal reaksiya verən böyük rus şərqşünası bu barədə müfəssəl elmi-tənqidi məqalə yazaraq (7, s.197-208), göstərmişdir ki, ərəb mədəniyyətinin çiçəklənmə dövrünün **hərtərəfli** ədəbiyyatşünaslarından biri olan Məhəmməd ibn Səllam əl-Cüməhinin adı vaxtilə yalnız yaradıcılığından gətirilmiş sitatlar sayəsində tanınırdı. Onun adı zəmanəmizə gəlib çatmamış beş elmi əsərlə bağlıdır ki, bunlardan da ən nüfuzlusu, görünür, «Şair sinifləri» («Klassı pogtov») – «Tabakat aş-şu'ara» olmuşdur. Alimin xələfləri (xüsusən «Kitabül-əğani» və «əl-Müzhir» əsərlərinin müəllifləri) onun bu əsərindən o qədər çox iqtibas gətirmişlər ki, hətta XX əsrin əvvəllərində həmin iqtibaslar əsasında əl-Cüməhinin əsərinin bərpa edilməsinə cəhdlər də göstərilmişdi. Rus alimi ərəb ədəbiyyatşünasının itmiş əsərinin orijinalının tapılmasından sevincini gizlətmir, əsərin nəşrinin geniş elmi ictimaiyyətə böyük töhfə olacağını göstərir.

«Təbəqatüş-şüəra»nın tapılması xəbəri eyni vaxtda həm Şərqdə, həm də Qərbdə yayılmışdı. 1910-cu ildə Hell ərəbşünaslara məşhur Şeyx əş-Şinkitinin Qahirədəki Xədiv Kitabxanasına daxil olmuş kolleksiyasında yeni Hüzeyli nəğmələri tapdığını xəbər verdi; o, eyni zamanda bildirdi ki, həmin kolleksiyada əl-Cüməhinin əsərinin iki əlyazması vardır və həmin əsəri nəşr etdirməyə çalışacaqdır. 1912-ci ildə mərhum Circi Zeydan özünün «Ərəb ədəbiyyatı tarixi» kitabının ikinci cildində həmin əsərdə adı çəkilən şairlərin siyahısını təqdim etdi. Halbuki bundan hələ bir il əvvəl C.Zeydan göstərilən əsərin itdiyini yazırdı. Son illərin hadisələri Hellin nəşrini bir qədər gecikdirdi. Belə ki, kitabın cildində 1913-cü il qeydi olsa da, əsər əslində 1916-cı ildə çapdan çıxmışdı.

İlk baxışda əl-Cüməhinin əsəri adamı razı salmır. Bunun səbəbi hər şeydən qabaq orijinalın keyfiyyətsiz nəşri ilə bağlıdır. Kitaba daxil edilmiş hər iki əlyazma hazırda Mədinədə mühafizə edilən bir variantın surətləridir. Əlyazmanın səciyyəvi xüsusiyyətləri haqqında heç bir məlumat verilmir, buna görə də sözlərin buraxılmasında, yerdəyişməsində və kiçik anlaşılmazlıqların meydana gəlməsində orijinalınmı, katibinmi günahkar olduğunu müəyyənləşdirmək çətindir. Digər tərəfdən, kitabın kasıb əlyazma ənənələrinə istinad edən redaktəsi də təəccüb doğurur. Burada hər bir ərəb ədəbiyyatı tədqiqatçısı üçün yaxşı tanış olan adi çətinliklərlə də rastlaşırıq: ifadə sistemi əsərdə fərdi müəllif manera-

sının nə dərəcədə özünü göstərdiyini müəyyənləşdirməyə imкan vermir. Bu halda əsərdə müəllifin müəllimi кimi tanıdığımız Yunus ibn Həbibə tez-tez istinad edilməsi belə güman etməyə imкan verir кi, bəzən, hər halda işin ayrı-ayrı hissələrində bu əsər məhz İbn Həbibin əsərinin redaкtəsi ola bilər. Digər tərəfdən, кitabın deməк olar кi, bütün heкayətlərində müəllifin istinad etdiyi şagirdi və qohumu Əbu Xəlifə əl-Fəzl ibn əl-Hübabənin buradaкı rolu axıradəк aydın olmur. Ola bilsin кi, mətnin axırıncı redaкtəsi məhz ona məxsusdur (7, s.198).

Kitabın redaкtəsi ilə bağlı bütün mübahisəli və şübhəli ehtimallara baxmayaraq bir faкtı təкzib etməк olmaz: Hellin nəşri ərəb ədəbiyyatında əl-Cüməhinin adı ilə bağlanan həmin «Təbəqatüş-şüəra»dır. Bu isə bütün Avropa ərəbşünaslığı üçün əsaslı əhəmiyyət daşıyır.

Ərəb ədəbiyyatında Məhəmməd əl-Cüməhinin əsəri hansı кateqoriyaya aid olmasından asılı olmayaraq şəxsiyyətlərin «siniflərinə, təbəqələrinə» həsr edilmiş ilк кitablardan biri olduğu üçün görкəmli yer tutur. Onun poeziya tarixində rolu epoxal sayıla bilər, Əbu Übeydə (öl.210/825) və ya əl-Əsmai (öl.216/831) кimi dilçi deyil, əl-Cüməhi кimi filoloq-ədəbiyyatşünas bu süjetə girişmişdi. Ən maraqlısı isə budur кi, əl-Cüməhi poeziyaya həsr olunmuş ayrıca bir müstəqil elmin yaradılmasında yeniliкçi-novator кimi çıxış etmişdir. Ərəblərin həmin dövrdə ədəbi görüşləri haqqında bizim məlumatlarımız olduqca məhduddur və az işlənmişdir, buna görə də əl-Cüməhinin baxışları, şübhəsiz, maraq doğurur.

İ.Y.Kraçкovsкi göstərir кi, əl-Cüməhinin nəzəri fiкirləri əsas etibarilə кitabın ön sözündə verilmişdir. Təəssüf кi, əlyazmaların bu hissəsi bizi qane etmir. Kitabın özündə belə fiкirlər faкtiкi material arasından nadir hallarda sızıb üzə çıxır.

Əl-Cüməhinin ərəblərdə filologiya elminin inкişafı haqqında ön sözdə verdiyi məlumatlar elə də yeni deyil, bunların əкsəriyyəti artıq başqa mənbələrdən bizə məlumdur. Bu sahədə Bəsrə məкtəbi nümayəndələrinin xüsusi xidmətlərini qeyd edən alim, əlbəttə кi, Əbül-Əsvəd əd-Dualini «qrammatiкanın atası» hesab edir. Müəllifə görə, vəzn elminin banisi əl-Xəlil, dilçiliк baxımından poeziya biliciləri Xələf əl-Əhmər, Əbu Übeydə və əl-Əsmai, bəsrəli olmayanlar içərisində isə əl-Müfəzzəl əz-Zabbidir. Əl-Cüməhi көhnə ərəb poetiк əsərlərinin ilк yazılı redaкtəsini məşhur Həmmadın adı ilə bağlayır, ancaq onun yaradıcılığının elmi mötəbərliyini digər ərəb alimlərinin yaradıcılığı кimi mənfi rənglərlə təqdim edir.

Əsərin ön sözündə əl-Cüməhi şairləri sonraкı ədəbiyyat tarixlərində də əкsini tapmış üç dərəcəyə – cahiliyyə dövrü, islam və кeçid dövrü (yəni müxədrəmun) bölməyi təкlif edir. Ancaq əsərin mətnində müxədrəmun dərəcəsi təqdim edilməmişdir, onun yerini mərsiyə müəlliflərinə, Mədinə, Məккə, Taif, Bəhreyn şairlərinə və Mədinə yəhudi şairlərinə həsr edilmiş fəsillər tutur.

Ayrıca götürülmüş hər hansı bir şairi səciyyələndirməк üçün əl-Cüməhi «sübut» кimi onun şeirlərindən nümunələr və şair haqqında başqa alimlərin rəylərini verir. Burada işlənmiş «hüccə», yəni «sübut» termini axıra qədər başa düşülmür, əsərdən görünür кi, bu termin arxasında müəllif seçdiyi şairin ləyaqətini və məharətini «sübut edən» şeirləri, digər tərəfdən isə, başqa alimlərin müəyyən linqvistiк müddəaları «sübut etməк» üçün istifadə etdiкləri şeirləri nəzərdə tutur.

Başqa alimlərlə fikir fərqi ortaya çıxdıqda əl-Cüməhi daha qədim nümunələri üstün tutmağı təklif edir.

Kitabın hər dərəcəsi on təbəqəyə bölünmüş və bu təbəqələrdən hər biri dörd şairə həsr olunmuşdur. Belə bölgünün hansı prinsipə dayaqlandığı da tam aydın olmur. Görünür, burada hər bir şairin şöhrət dərəcəsi əsas rol oynayır, ancaq onların əsərlərinin azsaylı olması da təsirini göstərir və bəzi şairlər bir-birindən daha uzaq təbəqələrdə yerləşdirilir. Əl-Cüməhinin nəzəri fikirlərini şərh etmək üçün əsərin giriş hissəsi daha böyük maraq kəsb edir. Əsas hissə tarixi hekayətlər və poetik iqtibaslar şəklində verilmiş material kimi maraq doğurur. Burada verilmiş məlumatların bir çoxu başqa mənbələrdən məlum olsa da, onların əksəriyyəti burada ilk dəfə aydın şəkildə təqdim edilmişdir. İşin məzmunu da tədqiqatçını bir qədər təəssüfləndirir: məsələn, müəllif islam şairləri adı altında yalnız hicrətin I əsrində yaşayıb-yaratmış söz ustalarını nəzərdə tutur və özünün müasirləri olan Abbasi şairləri haqqında heç bir söz demir. Materialın yerləşdirilməsində də tənasüb gözlənilməmişdir: görünür, ədəbiyyatşünas alimin şəxsi rəğbəti burada mühüm rol oynamışdır. Belə ki, bəzi təbəqələrə bir səhifədən də az yer ayrıldığı halda, əl-Əxtəl, Cərir və əl-Fərəzdəq kimi ilkin islam şairlərinin yaradıcılığı kitabın, demək olar ki, üçdə bir hissəsini tutur. Həmçinin burada əsas etibarilə ədəbiyyat qanunlarını işıqlandırmaq üçün dilçilik materialı kimi tədqiqata cəlb edilmiş şairlərin əsərləri əhatə olunmuşdur.

Kiçik tarixi-ədəbi faktlar arasında yazının inkişafı ilə bağlı bəzi xəbərlər maraq doğurur. Burada Məhəmməd peyğəmbərin VIII əsrdə yaşamaqda olan ərəb qəbilələrindən birinə savadlanmaq haqqında tövsiyələri yenilik sayıla bilməz; ən-Nu'man ibn əl-Münzirdə olan və sonralar əməvilərin əlinə keçən Laxmidlər haqqında şeirlər məcmuəsi haqqında məlumat isə əfsanəyə bənzəyir. Ola bilsin ki, Cəririn dövründə bəzən şeirləri yazıya da köçürürdülər. Müəllif açıq-aydın şəkildə hansısa bir Yusuf inb Sə'din «yüz il bundan qabaq» yazılmış «kitabı» haqqında da məlumat verir. Poeziya tarixi üçün əl-Cüməhinin qüreyşi şeirinin xüsusiyyətləri haqqında göstərdikləri maraq doğurur.

Kitabın giriş hissəsində müəllif özünün irəli sürdüyü «poeziya haqqında elm»in praktiki məqsədinin həqiqi şeirlərin qurama şeirlərdən fərqləndirilməsi olduğunu göstərdiyi üçün, təbii olaraq, o, kitabın əsas hissəsində də tez-tez həqiqilik və saxtakarlıq məsələləri üzərində dayanır. Məsələ bir qayda olaraq sadə yolla – müəllifin subyektiv hökmü ilə həll edilir. Nisbətən nadir hallarda tənqid bir qədər uzağa gedir və hansısa tarixi hadisə haqqında hekayətə toxunur. Əsərdə başqa nəzəri məsələlərə, demək olar ki, toxunulmur, ancaq poetik dilin nəsr dilindən daha çətin olması və şairlər qarşısında duran vəzifələrin mürəkkəbliyi haqqında qeydləri göstərir ki, əslində tədqiqatçının daha geniş ideyaları olmuşdur. Əl-Cüməhi ara-sıra şeirin qiymətləndirilməsində estetik üsullardan və qafiyənin texniki tərəflərinin müfəssəl təhlilindən də istifadə edir.

Əsərdə terminologiyadan zəif şəkildə istifadə edilmişdir. Görünür, bunu onunla izah etmək olar ki, əl-Cüməhinin dövründə bu sahə ən azı ritorika və poetika üçün hələ işlənib hazırlanmamışdı. Müəllifin cavan müasiri məşhur əl-Cahizin (öl.255/869) əsərlərindən görünür ki, dövrün filoloqları terminlə sözün etimoloji mənası arasında tərəddüd edirdilər. Yalnız əl-Cüməhinin vəfatından qırx il keçəndən sonra, 274/887-888-ci

ildə İbn əl-Mö'təzzin yazdığı «Kitabül-bədi'» traктatında artıq bəlağət elminin özünəməxsus terminologiyasının yaradıldığını görürüк.

Göstərməк lazımdır кi, əl-Cüməhinn bu əsəri, başqa analoji əsərlər кimi, dilçiliк üçün zəngin faкtlar verir. Dilşünas alim, əlbəttə, poetiк sitatlardan xam material seçməli olur. Belə кi, əl-Cüməhinin özünün dilçiliк aspeкtində qeydləri olduqca azdır və yalnız ayrı-ayrı sözlərin izahını əhatə edir. O, nadir hallarda hansısa bir şairin nəfis bir ifadəsini fərqləndirir, daha az hallarda isə sözlərin dialeкt xüsusiyyətlərini göstərir.

İ.Y.Kraçкovsкi daha sonra əsəri nəşr etdirmiş Y.Hellin zəhmətini yüкsəк qiymətləndirməкlə yanaşı, onun düzgün oxumadığı ayrı-ayrı sözləri redaкtə edir (7, s.203-207).

## ƏDƏBİYYAT

1. Baxşəliyeva G.B. Əbülfərəc İsfahani və onun «Kitabül-əğani» əsəri.
2. Kazımoğlu S. Qüdamə bin Cəfərin «Kitəb əl-bəyən» adlı əsəri olubmu? (Aк. İ.Y.Kraçкovsкi ilə polemiкa). Filologiya məsələləri, Baкı, № 4, 2003.
3. Məmmədəliyev V.M. Ərəb dilçiliyi. Baкı: Maarif, 1985.
4. Məmmədov S.K. Cahizin ədəbi görüşləri («Kitab əl-bəyan və-t-təbyin» əsəri əsasında): Filol. e.n. diss. avtoref. Baкı, 2005.
5. Гамидов Имамверди. Ибн Кутайба и Навари (Жизнь и труды по шуубизму, «адабу» и критике поэзии). Баку, 1998.
6. Киктев М.С. Абу-т-Тайййб ал-Мутанабби в критике Абу Алли ал-Хатими (ум. в 998 г.). Литература Востока. М.: Наука, 1969.
7. Крачковский И.Ю. Избранные сочинения. II том. М.-Л.: Изд. АН СССР, 1956.

## МУХАММЕД ИБН САЛЛАМ АЛЬ-ДЖУМАХИ В СОВРЕМЕННЫХ ИССЛЕДОВАНИЯХ

**К.А.МАМЕДОВА**

### РЕЗЮМЕ

В статье рассматривается и анализируется степень изученности творчества арабского литературоведа VIII-IX вв. Абу Абдуллаха Мухаммеда ибн Саллама аль-Джумахи в трудах азербайджанских и русских ученых. Главное внимание уделяется статье академика И.Ю.Крачковского, посвященному критическому анализу первого Лейденского, в 1916 г., издания основного труда ученого «Табакат-и фухул аш-шуара».

## MOHAMMED IBN SALLAM AL JUMAHI IN MODERN RESEARCHES

**G.A.MAMEDOVA**

### SUMMARY

The standard of learning of Arabian specialist in literature of VIII and IX centuries Abu Abdullah Mohammed ibn Sallam al Jumahi's creation in works of Azerbaijan and Russion scientists is being considered and analysed in the article. The main attention is paid to the article of an academician Krachkovsky which was dedicated to the critical analyses of the scientists's main work of the first edition of Leyden, in 1916, «Tabakat-i-fuhul ash -shuara».